# "Ayrılarmı könül candan, Türkiyə Azərbaycandan"...

*Azərbaycan və Türkiyə arasında münasibətlərin xarakteri zamanın və şəraitin dəyişkənliyindən asılı olmayan, sabit və davamlı strateji əsaslara söykənən unikal bir modelə söykənir. Əlaqələrin ideoloji, siyasi və təhlükəsizlik aspektləri təkcə iki dövlət arasında imzalanmış sənədlərlə məhdudlaşmır. Əslində, bu münasibətlər daha çox dərin tarixi, mədəni və mənəvi bağlarla möhkəmlənmiş, qardaşlıq amili ilə təkmilləşən təhlükəsizlik ittifaqıdır.*




1990-cı illərdən etibarən Azərbaycan və Türkiyə arasında inkişaf edən siyasi dialoq və iqtisadi əməkdaşlıq zamanla hərbi, energetika və regional təhlükəsizlik platformalarında qarşılıqlı strateji koordinasiyaya çevrildi. Xüsusilə, 2010-cu ildə imzalanan "Strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" müqavilə bu münasibətlərin hüquqi bazasını formalaşdırdı və tərəflər arasında hər hansı təhlükə halında birgə reaksiya göstərmək öhdəliyini yaratdı. Sənədin reallıqda necə işlədiyini isə yalnız müharibə və ya siyasi böhranlar deyil, təbii fəlakətlər də göstərdi. 6 fevral 2023-cü ildə Türkiyənin Kahramanmaraş vilayətində ardıcıl baş verən 7.7 və 7.6 bal gücündə zəlzələlər 11 vilayəti əhatə edərək, 50 mindən çox insanın ölümünə və yüz minlərlə insanın evsiz qalmasına səbəb oldu. Bu faciə dövlətlərin və cəmiyyətlərin humanitar və mənəvi reaksiya testinə çevrildi. Azərbaycan bu sınaqdan istər siyasi rəhbərlik səviyyəsində, istərsə də vətəndaş həmrəyliyi baxımından nümunəvi şəkildə çıxdı. Prezident İlham Əliyevin birbaşa göstərişi ilə Fövqəladə Hallar Nazirliyi və digər aidiyyəti qurumlar tərəfindən axtarış-xilasetmə qrupları, təcili tibbi heyətlər, ixtisaslaşmış mütəxəssislər və humanitar yardım karvanları dərhal zəlzələ bölgələrinə göndərildi. Bu yardım kampaniyası ideoloji qardaşlıq konsepsiyasının dövlət siyasətinə inteqrasiyası kimi qiymətləndirilir. Zəlzələdən sonra Azərbaycanın Kahramanmaraşda inşa etdiyi və "Azərbaycan" məhəlləsi adlandırılan yaşayış kompleksi isə yardımın yalnız fövqəladə mərhələdə bitmədiyini, uzunmüddətli sosial və infrastrukturun bərpasına qədər uzanan strateji dəstəyə çevrildiyini göstərdi. Məhəllədə inşa edilən müasir tipli binalar, məktəb, uşaq bağçası və digər sosial obyektlər Azərbaycanın humanitar yardım konsepsiyasının yenidənqurma və dayanıqlı inkişaf modeli olaraq planlandığını sübut etdi. Eyni zamanda, bu təşəbbüs yumşaq güc mexanizmləri çərçivəsində Azərbaycanın regionda və xüsusilə Türkiyə cəmiyyətində nüfuzunu daha da artırdı. Respublikamız Türkiyədə milli şüura xitab edən jest nümayiş etdirdi.

**(davamı 3-cü səhifədə)**






# "Ayrılarmı könül candan, Türkiyə Azərbaycandan"...

(əvvəli 1-ci səhifədə)

Hər iki ölkə liderlərinin 2023-cü il fevral zəlzələsindən sonrakı dövrdə apardıqları davamlı siyasi dialoq qardaşlıq münasibətlərinin dövlət idarəçiliyi səviyyəsində də institusionallaşdığını bir daha nümayiş etdirdi. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan arasında baş tutan çoxsaylı telefon danışığı, həmrəylik mesajlarının verilməsi, liderlər arasında qarşılıqlı siyasi dəstəyin güclü olması xalqlar arasında dərin bağları yüksək səviyyəyə qaldırdı. Bu baxımdan, Prezident İlham Əliyevin Kahramanmaraşa səfəri, tikinti və yenidənqurma işlərinin gedişatına nəzarət etməsi, yerli əhali ilə birbaşa ünsiyyəti, klassik diplomatik münasibətlərdən fərqli olaraq, xalq-dövlət münasibətlərinin dərinliyini və qarşılıqlı etimadı simvolizə edən bir davranış modelidir. "Bir millət, iki dövlət" ifadəsi XXI əsrin türk dünyasında dövlət idarəetməsi fəlsəfəsinə, Türkiyə və Azərbaycanın daxili və xarici siyasətində praktiki yönəldici prinsiplərdən birinə çevrilmişdir.

Türkiyənin Kahramanmaraş şəhərində "Azərbaycan" məhəlləsinin açılış mərasimi və Prezidentlər - İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın tədbirdə iştirakı son dərəcə qürurlu anlar yaşatdı. Çıxışında cənab Ərdoğan bir daha vurğuladı ki, 2023-cü ilin fevralında baş vermiş dağıdıcı zəlzələlərin fəsadları ilə üzləşən Türkiyəyə yardıma ilk gələnlərdən biri də Azərbaycan olub. Xalqımızın həmrəyliyini və dəstəyini heç vaxt unutmayacağını vurğulayan Türkiyə lideri yardıma görə Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya xüsusi minnətdarlığını bildirdi. İki ölkənin hər zaman bir-birinin yanında olduğunu qeyd edən dövlətimizin başçısı da "Azərbaycan" məhəlləsinin açılışında iştirakını bu birliyin, dostluğun təzahürü adlandırdı.

"Azərbaycan" məhəlləsinin yaradılmasının çox gözəl hadisə olduğunu vurğulayan Prezident İlham Əliyev söylədi ki, biz xoş və kədərli günlərdə də daim bir-birimizin yanındayıq, bu da bir-birimizin gücünü artırır. Prezident, həmçinin görülən işlər barədə məlumat verərək bu məhəllənin yaradılmasının önəmini diqqətə çatdırdı: "Azərbaycan" məhəlləsinin yaradılması da çox gözəl hadisədir, burada 90-dan çox bina inşa edilib, 1200 mənzildə bizim türkiyəli bacı-qardaşlarımız yaşayacaq. Məktəb, uşaq bağçası var, mədəniyyət mərkəzinin inşası da nəzərdə tutulur. Biz yaxşı günlərdə də, ağır günlərdə də daim bir-birimizin yanındayıq, bir-birimizin gücünü artırırıq. Bu gün Türkiyə-Azərbaycan qardaşlığı, birliyi nəinki bölgəmiz üçün, dünya miqyasında önəmli amildir, təhlükəsizlik, işbirliyi, inkişaf və qardaşlıq rəmzidir. Dörd il bundan öncə hörmətli Cümhurbaşqanı ilə Şuşa şəhərində imzaladığımız Şuşa Bəyannaməsi bizim əlaqələrimizi ən yüksək zirvəyə qaldırmışdır. Şuşa Bəyannaməsi bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır. Biz dostuq, qardaşıq, müttəfiqik. Türkiyə və Azərbaycan - iki qardaş ölkə həm siyasi, həm iqtisadi, həm enerji, nəqliyyat, hərbi və bütün başqa sahələrdə bir-birinin yanında inamla, uğurla irəliləyir".

Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan qeyd etdi ki, Prezident İlham Əliyevin liderliyi ilə yardım, bu qardaşlıq əli Maraşın qəlbinə əbədi möhürünü vurub: ""Azərbaycan" məhəlləmiz bizim ən mötəbər layihələrimizdən biridir, qürur tablomuzdur. Zəlzələ nəticəsində dağılan bu məhəllə indi Azərbaycanın dəstəyi ilə yenidən canlanır. İlham qardaşımın da daim nəzarətdə saxladığı bu layihə burada məskunlaşacaq qardaşlarımıza etibarlı, firavan yuva, görənlərin həsəd aparacağı, özünə heyran qoyacağı bir əsər olacaq, inşallah. Təkcə evləri ilə deyil, parkları, bağları, mədəniyyət mərkəzi, Heydər Əliyev adına orta məktəbi ilə bura Türkiyə yüzilliyinin qabaqcıl şəhərlərinə yaraşacaq bir yaşayış sahəsi olaraq dirçəldilir. Hazırda burada ümumilikdə 2778 mənzilin, mağazanın və ofisin inşası sürətlə davam edir. Bu gün artıq layihələrimizin demək olar ki, yarısını başa çatdırdıq. İnşallah, ilin sonuna qədər qalan işlərimizi də başa çatdırıb öz sahiblərinə təhvil verəcəyik".

Qeyd edək ki, Prezident Rəcəb Tayyib Ərdoğanın rəsmi "X" (keçmiş Twitter) hesabında etdiyi paylaşım da bu layihənin miqyasını və strateji əhəmiyyətini bir daha təsdiqlədi. Türkiyə liderinin ifadə etdiyi kimi "Biz eyni bayrağın kölgəsində dua edən, eyni istiqlal üçün can verən bir millətin iki dövləti, tək ürək daşıyan övladlarıyıq. Ayrılarmı könül candan, Türkiyə Azərbaycandan". Yeri gəlmişkən, layihə çərçivəsində Kahramanmaraşda ümumilikdə 456 mənzil və 328 qeyri-yaşayış obyekti inşa olunub. Komplekslərin yerləşdiyi 7, 8, 11 və 12-ci kvartallarda artıq tikinti işləri tamamilə başa çatdırılıb. Xüsusi diqqətəlayiq məqam odur ki, binalar müasir memarlıq normalarına uyğun şəkildə, enerji səmərəli texnologiyalarla, o cümlədən günəş panelləri ilə təchiz olunmuşdur. Bu, Azərbaycanın davamlı inkişaf prinsiplərini ixrac edən aktor kimi çıxış etdiyini göstərir.

Bu faktlar ölkəmizin regionda və türk dünyasında dövlətçilik təcrübəsi və müasir şəhərsalma modeli ilə də nümunəyə çevrildiyini nümayiş etdirir. Zəlzələdən sonra zərər çəkmiş ərazilərdə 250 min mənzilin təhvil verilməsi Türkiyə dövlətinin daxili idarəetmə və bərpa gücünü nümayiş etdirməklə yanaşı, həm də beynəlxalq həmrəylik çərçivəsində əməkdaşlıqların məhsuldarlığını göstərdi. "Azərbaycan" məhəlləsində yeni mənzillərə köçən vətəndaşlar üçün daha önəmli təhlükəsizlik, etibar və gələcəyə ümid hissi ilə yenidən sosial həyata inteqrasiya olunmalarıdır.

**Nurlan ABDALOV,**
**"Respublika".**